

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

31 yanvar 2026-cı il, şənbə
№ 019 (7086)
Qiyməti 60 qəpik


# Prezident gəncləri mukafatlandırdı...

## İlham Əliyev müvafiq Sərəncam imzalayıb



Bax səh. 2

# Azərbaycanın sülh strategiyası...

Bax səh. 5

## Beynəlxalq qiymətləndirmədə əhəmiyyətli irəliləyiş

Nümunəvi inkişaf modelinə malik olan Azərbaycan dövləti ölkəmizin müasir siması ilə bir araya sığmayan korrupsiya, cinayət yolu ilə əldə olunmuş çirkli pulların yuyulması və bu kimi digər neqativ halların əhatə dairəsinin məhdudlaşdırılması istiqamətində ardıcıl siyasət həyata keçirir. Öz növbəsində respublikamızın bu sahədə qazandığı təcrübə və nailiyyətləri ixtisaslaşmış beynəlxalq qururmlar tərəffiindən yüksək dəyərləndirlir. Avropa Şurasının Cinayət Yolu ilə Əldə Edilmiş Əmlakın Leqallaşdırılması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) bu günlərdə Azərbaycanla bağlı yaydığı yeni qiymətləndirmə hesabatında yer alan müsbət dəyərləndirmələr bunun əyani təsdiqidir.

Hesabata əsasən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə...

Bax səh. 2



Bax səh. 3

## Dövlət Statistika Komitəsinin nümayəndə heyətinin Vyetnama səfəri başa çatıb

## Xankəndi, Xocalı və Ağdərəyə daha 142 nəfər köçürülüb

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq davam edir. Yanvarın 30-da respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Xankəndi, Xocalı və Ağdərəyə yola düşüb. Xankəndi şəhərində Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə 25, Ağdərə rayonunun Həsənriz kəndinə 52, Xocalı rayonunun Xanyurdu kəndinə 24, Təzəbinə kəndinə isə 41 nəfər köçürülüb. Ailələri Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qarşılayıb. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələrinin də iştirakı ilə onlara mənzillərin açarları...

Bax səh. 3

## Humanitar əməkdaşlıq nümunəsi

Bax səh. 4

## AŞPA-nın növbəti qərəzi
### və yaxud ermənidən artıq ermənilik

Bax səh. 6

## Qeyri-neft ixracında rekord nəticə

Bax səh. 5



## BMT çətin seçim qarşısında



Bax səh. 7

# Prezident İlham Əliyev dörd ölkənin yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Salli-Ann Vinsenti qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Dövlətimizin başçısı coğrafi baxımdan ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, iqtisadi-ticari, investisiya sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu, siyasi əlaqələrin inkişafını məmnunluqla vurğulayıb, səfirə fəaliyyətində uğurlar arzulayıb.





Azərbaycana səfir təyin edilməsindən şərəf hissi duyduğunu deyən Salli-Ann Vinsent bir müddət əvvəl ölkəmizdə olduğunu məmnunluqla xatırladaraq əlaqələrimizin genişləndirilməsi üçün səylə çalıcağını qeyd edib.

Səfir bir neçə gün əvvəl Avstraliyanın milli bayramı münasibətilə dövlətimizin başçısının Avstraliya İttifaqının General-Qubernatoru Samanta Mostinə göndərdiyi məktuba görə minnətdarlığını ifadə edib, COP29 çərçivəsində Azərbaycanla Avstraliya arasında qurulmuş əməkdaşlıqdan danışan səfir bu tədbirdə ölkəsinin böyük nümayəndə heyəti ilə təmsil olunduğunu xatırladıb. O, həmçinin Avstraliya və Türkiyənin COP31 tədbirini keçirməsi məsələsinə toxunaraq, bu xüsusda Azərbaycanın göstərdiyi səylərin yüksək qiymətləndirildiyini bildirib.

Salli-Ann Vinsent bu il Azərbaycanın BMT-nin ən mötəbər tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyini vurğulayaraq, Avstraliyanın bu tədbirdə də geniş nümayəndə heyəti ilə təmsil olunacağını qeyd edib.





Görüşdə siyasi, iqtisadi, yaşıl enerji və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin dərinləşdirilməsi işində mühüm rol oynadığı vurğulanıb. Gələn il diplomatik münasibətlərimizin 35-ci ildönümünün qeyd ediləcəyi bildirilib.

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 30-da Norveç Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Andreas Qaarderi qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Dövlətimizin başçısı ölkəmizlə Norveç Krallığı arasında ikitərəfli əlaqələrin inkişafının önəminə toxunub. Əməkdaşlığımızın enerji sahəsi ilə başladığını deyən Azərbaycan Prezidenti mövcud münasibətlərin genişləndirilməsi baxımından yaxşı imkanların olduğunu vurğulayıb. Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzulanıb. Azərbaycana səfir təyin olunmasından və dövlətimizin başçısı ilə görüşdən məmnunluğunu ifadə edən Andreas Qaarder diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərin inkişafına töhfə verəcəyini vurğulayıb.

Səfir Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə bağlı əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik edib. Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, Azərbaycanın sülhün gücləndirilməsi üçün səylərini bundan sonra da davam etdirəcəyini deyib.

Andreas Qaarder ölkəsinin Azərbaycanda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunda yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını bildirib. Görüşdə həm Azərbaycanın, həm də Norveçin Avropa İttifaqının enerji təchizatçısı olduqları vurğulanaraq, bu xüsusda enerji təhlükəsizliyi məsələləri müzakirə edilib.

Söhbət zamanı ikitərəfli gündəliyimiz, o cümlədən iqtisadiyyat, ticarət, enerji, həmçinin bərpaolunan enerji, sərmayələr, biznes əlaqələrinin qurulması istiqamətlərində əməkdaşlıq, regionda nəqliyyat bağlantılarının qurulması məsələləri ətrafında fikir mübadiləsi aparıldı, COP30 çərçivəsində səmərəli tərəfdaşlıq yüksək qiymətləndirilib.

Azərbaycan Prezidenti İndoneziya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Berlian Helmini də qəbul edib. Etimadnaməsini dövlətimizin başçısına təqdim edən səfirlə söhbət zamanı İndoneziya Prezidenti ilə Davosda və Şarm Əl-Şeyxdə təmasları xatırladılıb. Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) bu qurumun təsis edilməsindən sonra üzv qəbul edilən ilk ölkə olmasının bizim üçün böyük şərəf olduğunu deyən Prezident İlham Əliyev bu məsələdə təşkilata üzv bütün dövlətlərə, o cümlədən İndoneziyaya minnətdarlığını ifadə edib, bunu Azərbaycana olan hörmətin və qardaşlığın təcəssümü kimi qiymətləndirib.

Ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev siyasət, iqtisadiyyat, qarşılıqlı investisiya qoyuluşu, biznes təmasları sahələrində əməkdaşlığı daha da möhkəmləndirməyin önəmini qeyd edib.

Söhbət zamanı Azərbaycan-İndoneziya ikitərəfli əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev yanvarın 30-da Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Maria K.Papakonstantinusu da qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Dövlətimizin başçısı Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis ilə COP29 çərçivəsində ölkəmizdə, ötən ilin sentyabrında BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında, həmçinin digər beynəlxalq tədbirlər çərçivəsində görüşlərini məmnunluqla xatırladaraq həmin görüşlər əsnasında ikitərəfli əlaqələrimizin müxtəlif aspektləri ilə bağlı səmərəli müzakirələrin aparıldığını vurğulayıb, bu dialoqun münasibətlərimizin inkişafı üçün çox önəmli olduğunu diqqətə çatdırıb.

Ölkələrimizin müxtəlif sahələrdə, o cümlədən bu gün qlobal təhlükəsizlikdə mühüm amil olan enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq etdiklərini deyən Azərbaycan Prezidenti gələcəkdə biznes nümayəndələri arasında daha çox təmasların olacağına, qarşılıqlı investisiya qoyuluşunun həyata keçiriləcəyinə, tərəfdaşlığımızın inkişaf etdirilməsində hər iki ölkənin səfirlərinin vacib rol oynayacaqlarına ümidvarlığını bildirib.

Maria K.Papakonstantinus ölkəmizə səfir təyin olunmasından şərəf hissi keçirdiyini bildirərək, yaşıl enerji, kənd təsərrüfatı və digər sahələrdə ikitərəfli əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini qeyd edib. Söhbət zamanı siyasət, iqtisadiyyat, energetika, investisiyalar, nəqliyyat, mədəniyyət, incəsənət, təhsil, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulandı, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Gənclər üçün Prezident mükafatlarının verilməsi ilə bağlı Sərəncam imzalanıb

Prezident İlham Əliyev yanvarın 30-da “2026-cı il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında” Sərəncam imzalayıb. Sərəncam Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən imzalanıb. Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən 10 nəfərə 2026-cı il Gənclər üçün Prezident mükafatları verilib.

## “Şəhərsalma və Memarlıq İli” ilə bağlı Tədbirlər Planı təsdiqlənib

“Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sərəncama əsasən, Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirməli, Nazirlər Kabineti isə bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Beynəlxalq qiymətləndirmədə əhəmiyyətli irəliləyiş

## MONEYVAL-ın hesabatında Azərbaycanın dünya standartlarına uyğunluq dərəcəsi yüksəldilib

*Mübariz ABDULLAYEV*

Nümunəvi inkişaf modelinə malik olan Azərbaycan dövləti ölkəmizin müasir siması ilə bir araya sığmayan korrupsiya, cinayət yolu ilə əldə olunmuş çirkli pulların yuyulması və bu kimi digər neqativ halların əhatə dairəsinin məhdudlaşdırlması istiqamətində ardıcıl siyasət həyata keçirir. Öz növbəsində respublikamızın bu sahədə qazandığı təcrübə və nailiyyətləri ixtisaslaşmış beynəlxalq qurumlar tərəffiindən yüksək dəyərləndirlir. Avropa Şurasının Cinayət Yolu ilə Əldə Edilmiş Əmlakın Leqallaşdırılması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) bu günlərdə Azərbaycanla bağlı yaydığı yeni qiymətləndirmə hesabatında yer alan müsbət dəyərləndirmələr bunun əyani təsdiqidir.




Hesabata əsasən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) sahəsində Azərbaycanın beynəlxalq standartlara uyğunluq dərəcəsi yüksəldilib. Maliyyə Monitorinq Xidmətindən bildirilib ki, bu sahədə Azərbaycanın 5-ci raund qiymətləndirilməsi üzrə birinci tərəqqi hesabatı MONEYVAL-ın plenar iclasında təsdiq edilib.

**Milli səviyyədə yaradılan səmərəli hüquqi və institusional antikorrupsiya çərçivəsi**

Cinayətkarlıq, korrupsiya bütün ölkələrdə var. Əsas məsələ ondan ibarətdir ki, dövlətlər və hökumətlər milli səviyyələrdə bu kimi neqativlərə hansı baxı bucağından yanaşırlar. Prezident İlham Əliyevin müxtəlif auditoriyalar qarşısında birmənalı şəkildə bildirdiyi kimi, Azərbaycanda bu məsələlərə dözümlülük sıfır səviyyəsindədir. Görülən işlər də bunu təsdiqləyir. Ölkəmizdə korrupsiya, cinnayətkarlıq kimi hallara qarşı mübarizə sözdə yox, əməldə aparılır. Bu mübarizə xalq tərəfindən yüksək qiymətləndirilir.

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı korrupsiyanın, cinayətkarlığın da, necə deyərlər, zamana uyğun yeni transmilli növlərinin yaranmasını şərtləndirib. Bu kimi reallıqlar fonunda da milli dövlətlərin məsuliyyəti və qlobal təhdidlərə qarşı birgə səylərin gücləndirlməsi zərurəti ortaya çıxıb. Beynəxalq miqyasda korrupsiyaya qarşı mübarizədə hədəflənən nəticələri əldə etməkdən ötrü ilk növbədə milli səviyyələrdə səmərəli antikorrupsiya mexanizmləri işə salınmalıdır.

Respublikamızda korrupsiyaya, cinayətkarlığa qarşı mübarizə ardıcıl və sistemli xarakter daşıyır. Son illərdə aparılan islahatlar çərçivəsində Azərbaycanda korrupsiyaya qarşı mübarizə mexanizmləri ardıcıl olaraq təkmilləşdirilib, qanunvericilik bazası daha da genişəndirlib. Respublikamızda neqativ hallara qarşı mübarizənin səmərəliliyini artırmaq məqsədilə müxtəlif dövlət proqramları, milli strategiyalar qəbul olunub və uğurla reallaşdırılıb. Dövlətin, şəxsən Prezident İlham Əliyevin göstərdiyi qətiyyətli siyasi iradəyə uyğun olaraq Azərbaycanda şəffaf münasibətlər sistemi formalaşıb. Dövlət orqanlarında göstərilən xidmətlərin elektronlaşdırılması, eləcə də hüquq-mühafizə orqanları və məhkəmələr tərəfindən aparılan icraatların paralel olaraq elektron formada təşkili, “ASAN xidmət”, “DOST” modellərinin tətbiqi vətəndaşların dövlət qurumlarına əlçatanlıq səviyyəsinin artmasına, həmin qurumların fəaliyyətində şəffaflıq səviyyəsinin yüksəlməsinə səbəb olub.

Ölkənin mövcud inkişaf səviyyəsi bütün sahələrdə olduğu kimi, korrupsiyaya və cinayətkarlığa qarşı mübarizədə də yeni baxış tələb edir. Prezident İlham Əliyevin 4 aprel 2022-ci il tarixində imzaladığı müvafiq Sərəncamla “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı” təsdiqlənib. Ötən il isə dövlətimizin başçısı “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Qanunun tətbiqi haqqında Fərman imzalayıb. Bu sənədlərin təsdiqlənməsi Azərbaycanın özünün inkişafının indiki mərhələsində korrupsiyaya qarşı mübarizəyə yeni baxışını və niyyətini ifadə edir.

Paralel şəkildə, terrorizmə qarşı mübarizə sahəsində milli qanunvericilik davamlı olaraq beynəlxalq öhdəliklərə uyğunlaşdırılır. Hazırda respublikamız terrorçuluğa qarşı mübarizə üzrə mövcud 12 beynəlxalq konvensiyanın hamısına tərəf olaraq qoşulub. Milli qanunvericiliyin davamlı şəkildə təkmilləşdirilməsi institusional islahatlarla dəstəklənir. Respublikamızda müvafiq sahədə əsas səlahiyyətli dövlət qurumları Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidmətidir. Hüquq-mühafizə qurumları ilə yanaşı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və digər aidiyyəti qurumlar tərəfindən terrorçuluğa qarşı mübarizədə preventiv və sosial xarakterli tədbirlər görülür və fəaliyyətlər uzlaşdırılır. Maliyyə Monitorinqi Xidməti ölkənin əsas maliyyə kəşfiyyatı qurumu olaraq terrorçuluğun maliyyələşdirilməsi və çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsində ixtisaslaşıb. Qurumun institusional əsası və funksiyaları İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) standartlarına uyğunlaşdırılıb.

**Ardıcıl və qətiyyətli mübarizənin müsbət nəticələri**

Ölkəmizdə cinayətkarlığa, korrupsiyaya qarşı sistem halında ardıcıl mübarizə öz müsbət nəticələrini verir və bunu ötən ilin statistikası da əyani şəkildə təsdiqləyir. Hesabat dövrü ərzində vətəndaşların 11 min 671 müraciətinə baxılıb. Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq müvafiq dövr ərzində yol verilmiş qanun pozuntularının səbəblərinin müəyyən edilməsi və gələcəkdə bir daha törədilməməsi üçün müxtəlif qurumlara 133 təqdimat göndərilib. Həmin təqdimatlara əsasən bir sıra işçilər intizam məsuliyyətinə cəlb edilib.

Qeyd edilən müddət ərzində Baş İdarədə 315 müraciət və digər məlumatlara cinayət xarakterli material kimi baxılıb, 267 material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanıb, 48 material, o cümlədən 14-ü üzrə vurulmuş maddi ziyan məbləğlərinin ödənilməsi də nəzərə alınmaqla cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarlar qəbul olunub və digər prokuror təsir tədbirləri tətbiq edilib.

Əməliyyat qurumları tərəfindən 114 cinayət işi başlanılıb, keçirilmiş əməliyyat-axtarış tədbiri nəticəsində korrupsiya cinayəti törədən 18 şəxs cinayət başında yaxalanıb.



Hesabat dövrü ərzində Baş İdarə tərəfindən 174 şəxs barəsində 104 cinayət işi baxılması üçün məhkəmələrə göndərilib. Məhkəmələrə göndərilmiş cinayət işlərinin mütləq əksəriyyəti üzrə ittiham hökmləri çıxarılıb, qalanları isə hazırda məhkəmə baxışındadır.

Hesabat ili ərzində istintaqı başa çatdırılmış cinayət işləri üzrə ümumilikdə özgə əmlakına vurulmuş 35 milyon 391 min 465 manat məbləğində maddi ziyandan 11 milyon 634 min 316 manatının ödənilməsi təmin olunub. Zərərin ödənilməsi məqsədilə istintaqı başa çatdırılmış cinayət işləri üzrə 27 milyon 439 min 745 manat məbləğində əmlak üzərinə həbs qoyulması təmin olunub.

**Genişlənən beynəlxalq əməkdaşlıq**

Cinayətkarlq hallarının bir sıra hallarda transmilli səciyyə daşıması bu sahədə beynəlxalq əməkdaşlığın daha da gücləndilməsinin aktuallığını daha da artırıb. Azərbaycan da o mövqedən çıxış edir ki, qlobal təhdidləri, yaranan çağırışları yalnız sıx beynəlxalq əməkdaşlıq çərçivəsində önləmək mümkündür. Bu siyasi iradəyə uyğun olaraq ölkəmiz müvafiq beynəlxalq platformalarda uğurla təmsil olunur və əməkdaşlığın möhkəmlənməsinə davamlı töhfələr verir. Xatırlatmaq yerinə düşər ki, 2025-ci ildə respublikamız BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi - “GlobE Network” çərçivəsində keçirilən altıncı plenar iclasa uğurla ev sahibliyi edib.

Azərbaycan həmçinin terrorçuluğa qarşı mübarizə sahəsində də regional və beynəlxalq əməkdaşlıq mexanizmlərində fəal iştirak edir. Ölkəmizin terrorçuluğa qarşı mübarizə sahəsində sıx əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar arasında BMT-nin Terrorçuluqla Mübarizə İdarəsini, ATƏT-in Transmilli Təhdidlər Departamentini, Avropa Şurasının Terrorçuluğa qarşı mübarizə üzrə Ekspertlər Qrupunu (CODEXTER), eləcə də GUAM, Avropa İttifaqı, MDB, Şanxay Əməkdaşlıq Təşkilatını və digərlərini qeyd edə bilərik.

Yuxarıda bəhs olunan sənəd 2023-cü ildə qəbul edilmiş qiymətləndirmə hesabatında müəyyən olunmuş çatışmazlıqların aradan qaldırılması üzrə irəliləyişləri əks etdirir. MONEYVAL-ın qiymətləndirməsinə əsasən, respublikamız bu istiqamətdə əhəmiyyətli irəliləyiş nümayiş etdirib. Azərbaycan bu sahədə ölkədaxili və beynəlxalq strategiyaların hazırlanması və təbliğini həyata keçirən hökumətlərarası Maliyyə Tədbirləri üzrə İşçi Qrupun (FATF) standartlarına uyğunluq dərəcəsinin yüksəldilməsi üçün mühüm tədbirlər həyata keçirib.

MONEYVAL-ın 2023-cü il üzrə qiymətləndirməsindən sonra Azərbaycan tərəfindən müxtəlif sahələr üzrə risklərin araşdırması tamamlanıb. ƏL/TMM və benefisiar mülkiyyətçilik üzrə şəffaflığı təmin edən sistemlə bağlı yeni qanunvericilik və normativ aktlar qəbul olunub, maliyyə institutlarının fəaliyyətini tənzimləyən sahəvi qanunlara dəyişikliklər edilib, bu sahədə maarifləndirmə və təlimatlandırma aparılıb. Tələb olunan standartlara uyğun statistik məlumatların əhatə dairəsi genişləndirilib, hüquq, mühasibat və auditor xidmətləri üzrə nəzarət təkmilləşdirilib.

Nəticədə MONEYVAL ekspertləri Azərbaycan hökumətinin ƏL/TMM sahəsində qanunvericilik və tənzimləyici çərçivənin FATF tövsiyələrinə uyğunluğunun əhəmiyyətli dərəcədə artırdığını vurğulayıblar. Təqdim edilmiş əsaslandırmalar nəzərə alınaraq, 7 FATF tövsiyəsinin hər biri üzrə müraciətə dair müsbət qərar verilib və həmin tövsiyələrlə bağlı reytinqlər yüksəldilib.

# Dövlət Statistika Komitəsinin nümayəndə heyətinin Vyetnama səfəri başa çatıb















Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnam Sosialist Respublikasına səfəri çərçivəsində bu ölkənin iqtisadi-maliyyə mərkəzi və əhali sayına görə ən böyük şəhəri olan Ho Şi Min şəhərində bir sıra görüşlər keçirib.

Ho Şi Min Xalq Komitəsinin sədri Vo Van Minh və Ho Şi Min Şəhər Statistika İdarəsinin direktoru Nguyen Khac Hoang ilə görüşlərdə bir-birinin maraqlarına hörmətlə yanaşan Azərbaycan ilə Vyetnam arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanıb. Qarşılıqlı səfərlərin təcrübə mübadiləsi və müxtəlif istiqamətlərdə, o cümlədən statistika sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından böyük önəm daşıdığı bildirilib.

Səfər zamanı nümayəndə heyətinin ölkənin neft sənayesi mərkəzi olan Vunqtau şəhərində "Vietsovpetro" şirkətinin rəhbərliyi və Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının Vunqtau bölməsinin üzvləri ilə də görüşü olub. Görüşdə "Vietsovpetro" şirkətinin yaradılmasından bir müddət sonra - 1983-cü ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin başçılıq etdiyi SSRİ nümayəndə heyətinin Vunqtauya səfəri və daha sonra Vyetnama göstərilən dəstək sayəsində dənizdə ilk neftin hasil edildiyi xüsusi vurğulanıb. Azərbaycanlı mütəxəssislərin bu ölkənin neft-qaz sənayesinin qurulmasında xidmətlərinin əvəzsiz olduğu, Vyetnamın sözügedən sahədə kadr hazırlığı istiqamətində Azərbaycanın zəngin təcrübəsinin öyrənilməsinə və əməkdaşlığı olaqələrinin genişləndirilməsinə böyük maraq göstərdiyi qeyd edilib. Vunqtau ilə Bakının qardaşlaşmış şəhərlər olduğu bildirilərək iki ölkənin regionları arasında da işbirliyinin perspektivləri müzakirə olunub. Bu sahədə görüləcək işlərin Azərbaycan-Vyetnam münasibətlərinə dinamizm gətirəcəyinə inam ifadə edilib.

Nümayəndə heyəti Ho Şi Min şəhərindəki Müstəqillik sarayını, Vunqtauda isə "Vietsovpetro" şirkətinin muzeyini və Bakı küçəsini ziyarət edib.

Səfər yanvarın 30-da başa çatıb.

# Xankəndi, Xocalı və Ağdərəyə daha 142 nəfər köçürülüb





İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq davam edir. Yanvarın 30-da respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Xankəndi, Xocalı və Ağdərəyə yola düşüb. Xankəndi şəhərində Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə 25, Ağdərə rayonunun Həsənriz kəndinə 52, Xocalı rayonunun Xanyurdu kəndinə 24, Təzəbinə kəndinə isə 41 nəfər köçürülüb. Ailələri Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qarşılayıb. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələrinin də iştirakı ilə onlara mənzillərin açarları təqdim edilib.

Sakinlərə mənzillərin açarlarını təqdim edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdış proqramının məqsəd və vəzifələri barədə məlumat verib. Bildirib ki, dövlət başçısının tapşırıq və göstərişlərinə uyğun olaraq azad edilmiş ərazilərdə müasir infrastruktur qurulur, yaşayış evləri, sosial obyektlər inşa edilir və sakinlərin rahat, təhlükəsiz şəkildə məskunlaşması üçün hərtərəfli şərait yaradılır. Torpağına qayıdan insanların məşğulluq məsələsi də daim diqqətdə saxlanılır. Böyük Qayıdış proqramı çərçivəsində köç prosesi mərhələli şəkildə davam edir.

Sonra ailələr sevinc hissi ilə yeni evlərində yerləşiblər.

# Sağlam gənclik: Güclü Azərbaycanın təməli!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti üzrə hazırlanmışdır**

*"Hər bir xalqın, millətin, ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir!"*

**Ulu Öndər Heydər Əliyev**

*"Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram!"*

**Prezident İlham Əliyev**



Bir xalqın gələcəyi onun gənclərinin sağlamlığı, düşüncə tərzi və həyat mövqeyi ilə ölçülür. Sağlam gənclik təkcə fiziki güc demək deyil, bu, sağlam düşüncə, mənəvi dəyərlərə bağlılıq, vətənpərvərlik və müasir dünyaya açıq olmaq deməkdir. Bu gün Azərbaycan gəncliyi məhz belə bir məsuliyyətli dövrün əsas aparıcı qüvvəsidir.

Sağlam gənclik, eyni zamanda, sağlam düşüncə deməkdir. Məlumatı düzgün analiz edən, milli-mənəvi dəyərlərlə müasirliyi uzlaşdırmağı bacaran gənclər Azərbaycanın sabahını formalaşdıracaq. Bu baxımdan gənclərin maarifləndirilməsi, mədəni və intellektual inkişafı da fiziki sağlamlıq qədər vacibdir. Kitab oxumaq, müzakirələrdə iştirak etmək, könüllü fəaliyyətlərə qoşulmaq gənclərin həm dünyagörüşünü, həm də sosial məsuliyyət hissini artırır.

**Sağlam, vətənpərvər, intellektli gəncliyimiz formalaşıb**

Müasir dövrdə gənclərin qarşısında həm böyük imkanlar, həm də ciddi çağırışlar dayanır. Texnologiyanın sürətli inkişafı, sosial şəbəkələrin həyatımızda tutduğu geniş yer, qloballaşma prosesləri gənclərin dünyagörüşünü formalaşdırır. Bu proseslər düzgün istiqamətdə yönəldildikdə gənclərin intellektual inkişafına, bilik və bacarıqlarının artmasına xidmət edir. Lakin sağlam həyat tərzi, düzgün qidalanma, fiziki aktivlik və psixoloji tarazlıq unudulduqda, bu imkanlar riskə çevrilə bilər.

Hər bir xalq öz müqəddəratını, gələcəyini, arzularını, inamını, ümidlərini daha çox gənclərə bağlayır. Bir sözlə, gənclər hər bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Ölkəmizdə sağlam, vətənpərvər, intellektli gənclik formalaşıb. Gənclərin hərtərəfli inkişaf etməsi, layiqli vətəndaş kimi yetişməsi, xalqına, Vətəninə sevgi hisslərinin aşılanması bütövlükdə cəmiyyəti düşündürməlidir. Bunun üçün çox ciddi və lazımlı işlərin görülməsi vacibdir. Xüsusilə də dünyanın indiki mürəkkəb, ziddiyyətli zamanında bunlar olduqca mühümdür.

**Ulu Öndər gənclər siyasətinin təməlini qoyub...**




Məlumdur ki, fevralın 2-si ölkəmizdə Gənclər Günü kimi qeyd olunur. Belə ki, Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan olunub. Ümummilli Lider gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bütün dünyaya nümunə olacaq addımlar atıb. Ulu Öndər bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin edib. Gənclərin sosial, iqtisadi və sair problemlərinin həllinə yönələn, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, Dövlət proqramları bu qəbildəndir. Bu sənədlər gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə son dərəcə müsbət təsir göstərib.

Heydər Əliyevin "Hər bir xalqın, millətin, ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir" fikri Azərbaycanda həyata keçirilən gənclər siyasətinin fəlsəfi və ideoloji əsasıdır. Gənclər siyasəti sahəsində Ulu Öndərin siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevin də illər ərzində əsas fəaliyyət istiqamətlərindən biri gənclər olub. Bu baxımdan ölkə başçısı gənclərə xitab edərək deyib: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

**Müasir çağırışlara uyğun gənclər strategiyası**

Həm Ümummilli Liderin, həm də Prezident İlham Əliyevin gənclər siyasətinin mərkəzində bir əsas xətt dayanır. Bu da Azərbaycan gənclərinin Vətənə sədaqət ruhunda tərbiyə edilməsidir. Azərbaycan gəncləri üçün ən həlledici sınaqlardan biri də 44 günlük Vətən müharibəsi oldu. Ordumuzun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti ilə qazanılan bu Şanlı Zəfər sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, Azərbaycan xalqı 30 illik həsrətdən sonra tarixi torpaqlarına qovuşdu. Qürurverici haldır ki, gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib. Onlar ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər.

Şaxtaya, soyuğa, qara baxmayaraq, Laçın-Xankəndi yolunda etiraz aksiyasına qatılan iştirakçıların böyük əksəriyyətini gənclər təşkil edirdi. Bütün Azərbaycanın ürəyi Laçın yolunda döyünürdü. Onlar böyük əhval-ruhiyyə ilə öz haqlı tələblərini dünyaya bəyan edirdilər. Könüllü gənclər və ekoloqlarımız etiraz aksiyasında Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edirdilər. Aksiyaya qoşulan könüllü gənclərimizin sayı gün keçdikcə daha da artırdı. Xalqımız gecə-gündüz şaxtalı-qarlı havada orada öz haqlarını tələb edən gənclərlə fəxr edirdi.

Azərbaycanda gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabaha aparacaq. Bu yolda dövlətimiz gənclərə böyük dəstək verir. Bu gün gənclərimiz öz sahəsində, fəaliyyətində inamla çalışırlar. İndi gənclərimiz, idmançılarımız beynəlxalq tədbirlərdə və yarışlarda iştirak edərkən tamamilə başqa bir həvəslə çıxış edirlər. Onlar bizim müzəffər xalq olmağımızın həqiqətini bir daha təsdiqləyirlər.

Göründüyü kimi, bu gün Azərbaycan gəncliyi artıq sübut edib ki, lazım gəldikdə həm idman arenasında, həm elm sahəsində, həm də Vətən qarşısında üzərinə düşən vəzifəni layiqincə yerinə yetirə bilir. Bu gücün və potensialın qorunması isə sağlam həyat tərzindən keçir. Sağlam gənclik məqsədli, özünə inanan və gələcəyə ümidlə baxan gənclikdir. Bir sözlə, sağlam gənclik sağlam gələcəyin bünövrəsidir. Gənclərin sağlamlığına qoyulan hər bir sərmayə, əslində, ölkənin sabahına qoyulan sərmayədir. Çünki gələcək bugünkü gənclərin əlindədir - sağlam əllərdə...

*Yeganə BAYRAMOVA*

# Humanitar əməkdaşlıq nümunəsi

## Leyla Əliyeva Beynəlxalq Təbiəti Mühafizə Birliyində görüşlər keçirib










*Yeganə BAYRAMOVA*

Heydər Əliyev Fondunun respublikamızda və ölkə hüdudlarından kənarda reallaşdırdığı xeyriyyəçilik, humanitar-mədəni təyinatlı layihələr quruma bütün dünyada böyük nüfuz qazandırıb. Fondun xarici ölkələrdə həyata keçirdiyi humanitar və mədəni layihələr Azərbaycanı sülhsevər, humanist və əməkdaşlığa açıq bir dövlət kimi tanıdır. Müxtəlif beynəlxalq təşkilatlarla, fondlarla və qurumlarla qurulan tərəfdaşlıqlar Fondun qlobal humanitar proseslərdə fəal iştirak etdiyini nümayiş etdirir. Bu əməkdaşlıqlar nəticəsində Fondun beynəlxalq əlaqələri ildən-ilə genişlənir və möhkəmlənir.

Bütün bunların nəticəsidir ki, Heydər Əliyev Fondu bu gün təkcə milli miqyasda deyil, dünya səviyyəsində də etibarlı və nüfuzlu humanitar təşkilat kimi tanınır. Fondun ardıcıl, məqsədyönlü və xoş məramlı fəaliyyəti gələcəkdə də beynəlxalq əməkdaşlığın daha da dərinləşəcəyinə və humanitar dəyərlərin geniş yayılmasına mühüm töhfələr verəcəyinə əminlik yaradır.

Dünən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva İsveçrənin Qland şəhərində Beynəlxalq Təbiəti Mühafizə Birliyinin (IUCN) baş direktoru Qretel Agilar ilə görüş keçirib. Görüşdə Azərbaycan və regionda ətraf mühitin mühafizəsi sahəsində mövcud çağırışlar fonunda beynəlxalq əməkdaşlığın rolu, qlobal və regional səviyyədə əlaqələndirilmiş yanaşmaların əhəmiyyəti, habelə bu istiqamətdə dialoqun möhkəmləndirilməsinin perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Bildirilib ki, 2014-cü ildən etibarən IUCN-in tamhüquqlu üzvü olan IDEA İctimai Birliyi təbiətin mühafizəsi və biomüxtəlifliyin qorunması istiqamətində beynəlxalq təşəbbüslərdə fəal iştirak edir və bu sahədə əməkdaşlığın genişləndirilməsinə töhfə verir. IUCN-in ötən il Əbu-Dabidə keçirilən Ümumdünya Mühafizə Konqresində təqdim olunmuş birgə pavilyon və bir sıra digər layihələrə toxunan görüş iştirakçıları qazanılan müsbət təcrübəni qeyd edərək, qarşılıqlı əməkdaşlığın uğurla davam edəcəyinə inandıqlarını ifadə ediblər.

Həmçinin görüş çərçivəsində Azərbaycanda IUCN ilə yüksəksəviyyəli regional dialoqun təşkili, beynəlxalq tədbirlər çərçivəsində birgə iştirak, o cümlədən Dünya Şəhərsalma Forumu (WUF13), Ümumdünya Ətraf Mühit Günü və COP31 çərçivəsində əməkdaşlıq imkanları müzakirə olunub.

Görüşün yekununda IUCN-in Azərbaycanda ölkə ofisinin açılması istiqamətində fəaliyyətlərin, eləcə də əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsini nəzərdə tutan Niyyət Bəyannaməsi imzalanıb.

Tərəflər aparılan müzakirələri IDEA İctimai Birliyi ilə IUCN arasında uzunmüddətli və çoxtərəfli əməkdaşlığın inkişafı baxımından mühüm addım kimi dəyərləndiriblər.

Qeyd edək ki, 1948-ci ildən etibarən fəaliyyət göstərən IUCN ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması, eləcə də dayanıqlı inkişaf sahəsində dünyanın aparıcı beynəlxalq təşkilatlarından biridir. IUCN 1964-cü ildə nəsli kəsilmək təhlükəsi altında olan canlı və bitki növlərinin vəziyyətini əks etdirən Qırmızı Kitabı yaradaraq qlobal səviyyədə ekoloji qiymətləndirmə və qərarvermə proseslərinə mühüm töhfə verib.

# Azərbaycanın sülh strategiyası...

## Cənubi Qafqaz üçün gələcəyin yol xəritəsi

Azərbaycanın post-müharibə dövründə nümayiş etdirdiyi siyasi davranış modeli beynəlxalq münasibətlər sistemində nadir və diqqətəlayiq nümunələrdən biri kimi qiymətləndirilir. Tarixən müharibələrdən qalib çıxan dövlətlərin məğlub tərəfi siyasi və iqtisadi təzyiqlər altında saxlamağa çalışması tez-tez rast gəlinən praktika olub - Azərbaycan isə 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi qələbədən sonra tamamilə fərqli bir yol seçdi. Bakı regionun əbədi sabitliyi və inkişafı naminə sülh, əməkdaşlıq və inteqrasiya xəttini prioritet elan etdi.

Müharibədən dərhal sonra irəli sürülən sülh təşəbbüsləri, sülh konsepsiyası, kommunikasiyaların açılması, regional iqtisadi əməkdaşlıq ideyaları Azərbaycanın strateji baxışının göstəricisidir. Bu yanaşma Cənubi Qafqazın illərlə üzərində formalaşmış "konfrontasiya bölgəsi" imicinin dəyişdirilməsini hədəfləyir. Bakı açıq şəkildə bəyan edir ki, region əməkdaşlıq və qarşılıqlı fayda məkanına çevriləcək.

Məhz Azərbaycanın təşəbbüskarlığı və prinsipial mövqeyi nəticəsində bu gün Cənubi Qafqaz qlobal güc mərkəzlərinin diqqətindədir. Şərqlə Qərb arasında yeni uzlaşma coğrafiyası, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsi kimi regionun geosiyasi əhəmiyyəti sürətlə artır. Bu kontekstdə sülhün yalnız regional deyil, qlobal təhlükəsizlik üçün də vacib amil olduğu aydın görünür. Ötən ilin avqustunda Vaşinqtonda keçirilən üçtərəfli görüş isə Azərbaycanın memarı olduğu sülh gündəliyinin beynəlxalq platformada real siyasi məzmun qazandığını təsdiqləyən mühüm hadisə kimi tarixə düşdü.

**İnkişaf və əməkdaşlıq modeli**

Qeyd olunduğu kimi, Azərbaycanın apardığı siyasət revanşizmə deyil, regionun davamlı inkişafına hesablanıb. Post-müharibə dövründə Bakı yalnız bəyanatlarla kifayətlənməyərək, konkret addımlar atmaqla yeni yanaşmasını praktik müstəvidə nümayiş etdirdi. İlk növbədə sülh şəraitinin yaradılması istiqamətində görülən işlər diqqət çəkir. Azərbaycan hərbi qələbədən sonra bölgədə gərginliyi artıracaq addımlardan imtina edərək, diplomatik kanalları ön plana çıxardı.

Eyni zamanda, Ermənistan ərazisindən və ya Ermənistan üçün yük daşınmasına icazə verilməsi mühüm siyasi mesaj daşıyırdı. Bu addım göstərdi ki, Azərbaycan regionda iqtisadi blokadalarla deyil, qarşılıqlı asılılıq və fayda prinsipi ilə hərəkət etməyə hazırdır. Neft və enerji məhsullarının ixracı məsələsində də Bakının konstruktiv mövqeyi özünü göstərdi. Enerji təhlükəsizliyi məsələsində Azərbaycan yalnız öz maraqlarını deyil, regionun ümumi rifahını nəzərə alan aktor kimi çıxış etdi.

Bütün bu addımların ünvanı aydındır - Ermənistan yaranmış tarixi fürsətdən maksimum yararlanmalıdır. Bakı açıq mesaj verir: sülh qarşı tərəf üçün risk deyil, inkişaf şansıdır. Əgər İrəvan bu çağırışlara cavab verməzsə, regional layihələrdən kənarda qalmaqla siyasi və iqtisadi baxımdan uduzan tərəf olacaq.

**Vaşinqton görüşü: sülh prosesinin yeni mərhələsi**

Vaşinqton görüşü Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir. Bu görüş təkcə tərəflər arasında dialoqun davamı deyil, həm də sülh prosesinin institusional çərçivəyə salınmasının göstəricisidir. Sülh sazişinin paraflanması istiqamətində əldə olunan razılaşmalar tərəflərin prosesə formal deyil, real yanaşdığını nümayiş etdirir.





Xüsusilə artıq ləğvi reallaşmış ATƏT-in Minsk Qrupu ilə bağlı qarşılıqlı müraciət mühüm siyasi məna daşıyırdı. Bu addım onu göstərir ki, tərəflər köhnə, nəticəsiz mexanizmlərdən imtina edərək, yeni regional reallıqlara uyğun formatlar axtarır. Digər mühüm məsələ Zəngəzur dəhlizinin (TRIPP) açılması istiqamətində razılaşmaların gündəmə gəlməsidir. Bu dəhliz təkcə Azərbaycan üçün deyil, Ermənistan da daxil olmaqla bütün region üçün iqtisadi canlanma deməkdir.

Vaşinqton görüşü həm də Bakının formalaşdırdığı yeni təhlükəsizlik və əməkdaşlıq arxitekturasının beynəlxalq legitimlik qazandığını göstərdi. Qlobal aktorlar artıq Azərbaycanın təqdim etdiyi yol xəritəsini real və işlək model kimi qəbul edirlər. Bakı bununla Cənubi Qafqazın gələcəyini təsadüfi proseslərin ümidinə buraxmır, strateji baxışla planlaşdırır və bu planı beynəlxalq müstəvidə müdafiə edir.

**Ermənistan üçün tarixi fürsət və məsuliyyət**

Reallıq ondan ibarətdir ki, bu gün regionda sülh üçün ən əlverişli şərait mövcuddur. Qeyd edək ki, Ermənistanın siyasi rəhbərliyi müxtəlif platformalarda sülhlə bağlı pozitiv açıqlamalar verir. Məsələn, Erəmnistanın baş naziri Nikol Paşinyan ölkəsinin Silahlı Qüvvələr Günü münasibətilə xalqa müraciətində bildirmişdi ki, Azərbaycan və Ermənistan arasında sülhün əldə olunması Ermənistanın təhlükəsizliyi üçün ən etibarlı təminatdır. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə bu günlərdə AŞPA-da çıxışı zamanı Azərbaycanla sülhün mümkün və real olduğunu bəyan edib. Mirzoyan İrəvanın Cənubi Qafqazda sabitliyin təmin olunması üçün şüurlu seçim etdiyini, bu istiqamətdə ardıcıl addımlar atıldığını vurğulayıb. Mirzoyan bildirib ki, sülh müqaviləsinin yaxın aylarda imzalanması və ratifikasiya edilməsi mümkündür.

**Konstitusiya maneəsi...**

Sülhün əldə olunmasına mane olan əsas amil isə Ermənistanın konstitusiyasında mövcud olan ərazi iddialarıdır. Azərbaycanla uzunmüddətli və davamlı sülh yalnız hüquqi ziddiyyətlər aradan qaldırıldıqdan sonra mümkündür. Ermənistan Konstitusiyasında Azərbaycana qarşı dolayısı və ya birbaşa iddiaların qalması sülh sazişinin ruhuna ziddir.

Bu məsələ təkcə Bakının tələbi deyil, beynəlxalq hüququn fundamental prinsiplərindən irəli gəlir. Dövlətlərin ərazi bütövlüyünün tanınması və qarşılıqlı suverenliyə hörmət sülhün əsas şərtidir.

**Ziddiyyətli ritorika - Marukyanın yalanları...**

Ermənistanın siyasi rəhbərliyi sülhə dəstək nümayiş etdirdiyini bildirsə də, beynəlxalq platformalarda səslənən bəzi çıxışlar bu mövqeyə ciddi kölgə salır. Xüsusilə AŞPA-da Edmon Marukyanın çıxışı yeni situasiyaya uyğun olmayan, köhnə ritorikanı xatırladan yanaşma kimi qiymətləndirildi. Bu çıxışı ilə Marukyan avropalıları inandırmaq istəyib ki, Bakı guya sülhə əngəl olur. Halbuki Azərbaycan qanunvericiliyə dəyişiklik etməyi yox, hazırkı konstitusiya aktından ölkəmizə qarşı ərazi iddialarını çıxarmağı tələb edir. Yəni konstitusiyada Ermənistanın qanunları ilə bağlı hər hansı islahat qarşı tərəfin daxili işidir. Azərbaycanın haqlı tələbi budur ki, Qarabağın Ermənistana birləşdirilməsi ideyası konstitusiyadan və Müstəqillik aktının preambula hissəsindən çıxarılsın.

Bu tip çıxışlar Ermənistanın sülh prosesində səmimiyyətinə dair suallar yaradır. Bir tərəfdən sülhdən danışmaq, digər tərəfdən beynəlxalq tribunalarda qarşı tərəfi hədəf alan bəyanatlar vermək konstruktiv xətt deyil. Bu, həm də Ermənistanın öz mövqeyini zəiflədən amildir.

Nəticə etibarilə, Cənubi Qafqazın gələcəyi bu gün verilən qərarlardan asılıdır. Azərbaycan qalib dövlət olaraq sülh yolunu seçib və bu yolun memarı kimi çıxış edir. Bakı revanşizmə yox, əməkdaşlığa, təcridə yox, inteqrasiyaya üstünlük verir. Ermənistan isə bu çağırış qarşısında tarixi seçim etməlidir.

*Pərviz SADAYOĞLU*

# Qeyri-neft ixracında rekord nəticə










## Ötən il Azərbaycan 3,6 milyard dollar dəyərində qeyri-neft məhsulları ixrac edib

Azərbaycanın ixrac potensialının artım dinamikası ötən il də davam edib. Belə ki, 2025-ci ilin yanvar-dekabr aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 8,1 faiz artaraq 3,6 milyard dollar təşkil edib. Bu dövrdə yeyinti məhsulları üzrə ixrac 18,4 faiz artaraq 1,2 milyard dollara bərabər olub. Qeyd edilən dövrdə ixrac olunan şəkər əvvəlki ilin müvafiq dövrünə nəzərən 57,4 faiz, meyvə-tərəvəz 27,4 faiz, alüminium və onlardan hazırlanan məmulatlar 24,2 faiz, pambıq iplik 19,3 faiz, kimya sənayesi məhsulları 8 faiz, bitki və heyvan mənşəli piylər və yağlar 2 faiz artıb.

Ötən il aqrar məhsullar üzrə ixrac 26,7 faiz artaraq 1 milyard dollar, aqrar-sənaye məhsulları üzrə ixrac isə 314,7 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 18,9 faiz artaraq 1,3 milyard dollar təşkil edib. Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl ( 326,2 milyon dollar) birinci olub. Bu siyahıda pomidor (tomat) (192,5 milyon dollar) ikinci, karbamid (170,8 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

**Rusiyaya 1,2 milyard, Türkiyəyə 597,3 milyon dollar...**

2025-ci ildə Rusiya Federasiyasına 1,2 milyard dollar, Türkiyəyə 597,3 milyon dollar, Gürcüstana 347,9 milyon dollar, İsveçrəyə 347,8 milyon dollar, Ukraynaya isə 201 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. Ötən il qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Prime Cotton" MMC, "Baku Steel Company" QSC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "TABA-TERRA" QSC, "STP Alüminium" MMC, "Export Stream" MMC,"P-AQRO" MMC,"KHAN-EL" MMC, "AGRARCO" MMC yer alır.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Digər şirkətlər qrupuna isə "SOCAR Polymer" MMC, "Azer-Gold" QSC, "Azəralüminium" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Socar-Dalğıc" MMC, "İstisu" mineral su zavodu MMC, "Azərbaycan Dəmir yolları" QSC, "SOCAR CAPE" MMC daxildir.

**"Azərkosmos"un ixracı 18 milyon dolları ötüb**

2025-ci ildə Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 43 ölkəsinə 18,1 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 66 faizini təşkil edib. 2025-ci ilin dekabr ayında isə "Azərkosmos" dünyanın 35 ölkəsinə 1,7 milyon dolları dəyərində xidmət ixrac edib. Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 4,6 milyon dollarla Birləşmiş Krallıq, 3,5 milyon dollarla Lüksemburq, 1,3 milyon dollarla İsveç, 861 min dollarla Türkiyə, 823,9 min dollarla Nigeriya qərarlaşıb.

**Dövlətin dəstəyi, vergi-gömrük güzəştləri...**

Azərbaycanın qeyri-neft ixracının böyüməsində yürüdülən təşviqedici siyasət tədbirləri, iqtisadiyyatın şaxələndirilməsi nəticəsində qeyri-neft sektorunda istehsalın artması mühüm rol oyanmaqdadır. Son illərdə dövlət tərəfindən qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, rəqabət qabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması istiqamətində ardıcıl məqsədyönlü tədbirlər həyata keçirilib. İxracla məşğul olan biznes subyektlərinə müxtəlif güzəştlər, o cümlədən vergi-gömrük güzəştləri tətbiq olunub, ixrac təşviqi sənədi üzrə maliyyə yardımı göstərilib, habelə kənd təsərrüfatı və emalı məhsullarına ixracla bağlı geri ödəmə dəstəkləri verilib. Bundan başqa, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınmasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclər dövlət büdcəsi hesabına ödənilib. Qeyd edilən dəstəkləyici mexanizmlərin hazırda daha da genişləndirilməsi istiqamətində addımlar atılır.

Bu dəstəkləyici və stimullaşdırıcı tədbirlər sayəsində ixracın çeşidi artıb və hazırda Azərbaycan 100-ə yaxın ölkəyə 35 adda qeyri-neft malları ixrac edir.

**İxracatçıların xaricdəki məkanı - Ticarət Evləri**

Azərbaycanda qeyri-neft ixracının artmasında Ticarət Evlərinin də mühüm əhəmiyyəti var. Azərbaycan məhsullarının xarici bazarlara çıxarılması, satışının təşkili və əlaqələndirilməsində Ticarət Evlərinin imkanları kifayət qədər böyükdür. "Made in Azerbaijan" brendi altında qeyri-neft məhsullarının ixracının artırılması məqsədilə xaricdə Ticarət Evləri 2017-ci ildən yaradılmaqdadır. Azərbaycan ötən illərdə Rusiya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Ukrayna, Polşa, Latviya, Çin, Qazaxıstanda Azərbaycanın Ticarət Evləri fəaliyyət göstərir.

Ticarət Evləri Azərbaycan məhsullarının təkcə satışı və tanıdılması üçün əhəmiyyət daşımır, bu cür iqtisadi strukturlar həm də iki ölkə arasında faydalı iqtisadi müzakirələr üçün platforma rolunu oynayır, Azərbaycan ixracatçılarının potensial imkanlarını nümayiş etdirir. Son illərdə Azərbaycanla iqtisadi əlaqələri inkişaf etdirən Çində Azərbaycan Ticarət Evlərinin sayının artması da bunu təsdiqləyir. İndiyədək Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində Azərbaycanın Ticarət Evləri açılıb, eləcə də Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 Şərab Evinin fəaliyyəti təmin edilib.

Eləcə də Körfəz ölkəlıəri ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafında yeni mərhələnin başlanması bu region ölkələrində də ixrac xəritəsinin coğrafiyasını genişləndirib və yeni Ticarət Evlərinin yaradılması işlərini sürətləndirib. Eyni zamanda, potensial ixrac bazarları ölkələrində logistika mərkəzlərinin yaradılması və Ticarət Evləri ilə fəaliyyətinin əlaqələndirilməsi istiqamətində görülən işlər də yeni ixrac bazarlarının təşkilində mühüm rol oynmaqdadır.

**"Milli ixrac strategiyası" - qeyri-neft ixracını hədəf xəritəsi...**

Azərbaycanın qarşısında duran müasir iqtisadi çağırışlardan biri ixracyönümlü iqtisadiyyata keçidin təmin olunması, Avropa, Asiya və digər region ölkələri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağı tarifli mühitdə səmərəli gömrük prosedurlarının tətbiqi nəticəsində mövqeyinin gücləndirilməsidir. Bu məqsədlə ölkəmizin şaxələndirilmiş nəqliyyat-logistika imkanlarından və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə ixrac potensialının daha da yüksəldilməsi, transsərhəd ticarətin, o cümlədən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur.

Ortamüddətli dövrə dair strateji yol xəritələrinə əsasən, qeyri-neft sektoru üzrə ixracın hazırda adambaşına düşən həcminin 200 dollardan 450 dollara çatdırılması hədəflənib. Qeyri-neft ixracını illik 13-15 faiz artırmaqla həmin hədəfə çatmaq mümkündür. Həmin hədəflərə çatmaq üçün yeni sənəd- "Milli ixrac strategiyası" hazırlanıb. Sənəd 15-dən çox hədəf bazarını və 120 çeşid ixrac məhsulunu müəyyən edir.

*E.CƏFƏRLİ*

# ABŞ-da bağlanma riski aradan qalxdı

## Demokratlar və respublikaçılar razılığa gəldi

Demokrat və Respublikaçı partiyaların nümayəndələri ABŞ Konqresində hökumətin bağlanmasının qarşısını almaq üçün kompromisə gəliblər. Bu barədə ABŞ prezidenti Donald Tramp özünün sosial media səhifəsində bildirib. Qeyd edib ki, hər iki partiya sentyabr ayının sonuna qədər ABŞ hökumətinin əksər hissəsini maliyyələşdirmək üçün birlik nümayiş etdiriblər. "Əvvəllər heç olmadığı qədər genişlənən və yenidən qurulan Sahil Mühafizəsi də daxil olmaqla, Daxili Təhlükəsizlik Departamenti üçün büdcə də razılaşdırılıb", - deyə Tramp bildirib.

Xatırladaq ki, bundan əvvəl Pentaqon və Daxili Təhlükəsizlik Departamenti (DHS) daxil olmaqla qalan altı federal agentliyi maliyyələşdirən qanun layihəsinin Senatda prosedur səsverməsindən keçmədiyi və Demokratlar və Respublikaçılar arasında davam edən fikir ayrılıqları fonunda hökumətin daha bir bağlanma ehtimalını kəskin şəkildə artırdığı bildirilirdi.








### Demokratlar razılaşdı...

Qeyd edək ki, demokratlar 29 yanvar cümə axşamı səhər səsverməsindən əvvəl tələblər siyahısını təqdim etmişdilər. Digər məsələlərlə yanaşı, onlar ICE əməkdaşlarının maska taxmamalarını, sakinlərlə ünsiyyət qurarkən özlərini təqdim etmələrini və yalnız orderlə həbs etmələrini tələb edirlər. Bu tələblər yerinə yetirilməyəcəyi təqdirdə, demokratlar hökumətin bağlanmasına səbəb olacaq Daxili Təhlükəsizlik Departamentinin büdcə qanun layihəsini bloklamağa hazır olduqlarını bəyan etmişdilər. Senatda demokratların lideri Çak Şumer çərşənbə günü bildirmişdi ki, demokratlar ABŞ İmmiqrasiya və Gömrük Nəzarəti Xidməti cilovlanmadan və yenidən təşkil edilmədən qanun layihəsinə səs verməyəcəklər. "Amerika xalqı hüquq-mühafizə orqanlarını, sərhədlərimizin təhlükəsizliyini təmin etmək ehtiyacını dəstəkləyir", - Şumer deyib.

### Prettin ölümü ilə başlandı...

Bu arada, ABŞ Gömrük və Sərhəd Mühafizəsi (Vətən Təhlükəsizlik Departamentinin bir bölməsi) Minneapolis sakini Aleks Prettin ölümündə iştirak edən iki agentin istintaq aparılana qədər işdən çıxarıldığını elan edib. xatırladaq ki, ötən həftə sonu xəstəxananın reanimasiya bölməsində tibb bacısı kimi fəaliyyət göstərən 37 yaşlı Aleks Pretti sakinlər ilə ICE əməkdaşları arasında münaqişəyə müdaxilə etdikdən sonra öldürülüb. Aleks Prettin qətli ABŞ-da geniş ictimai qəzəbə səbəb olub. Hər iki partiyadan olan qanunvericilər Daxili Təhlükəsizlik Katibinin istefasını tələb ediblər. Konqresə təqdim edilən ilkin departament hesabatına görə, mübahisə zamanı iki ICE zabiti Prettiyə atəş açıb. Əvvəlcə departament rəsmiləri Pretti agentləri silahla hədələdiyini iddia ediblər. Təhlükəsizlik Departamentindən Konqresə göndərilən ilkin hesabatda isə Pretti və ICE agentləri arasında dava düşdüyü, bir zabitin Prettidə silah olduğunu qışqırdığı, daha sonra iki agentin tibb bacısını vurduğu bildirilib.

### Ölkəni daxili təhdidlərdən qorumaq üçün...

Bu hadisə qısa müddət ərzində ikinci hadisədir. Daha əvvəl 37 yaşlı Renee Goode etirazlar zamanı İmmiqrasiya və Gömrük Mühafizəsi (ICE) zabiti tərəfindən güllələnərək ölmüşdü. ABŞ Daxili Təhlükəsizlik Departamenti (DHS) sərhəd təhlükəsizliyi, immiqrasiya nəzarəti və ölkəni daxili təhdidlərdən qorumaq üçün məsul olan bir neçə qurumu birləşdirir. Bu qurum 11 sentyabr 2001-ci il terror hücumlarından sonra daxili təhlükəsizlik səylərini əlaqələndirmək üçün yaradılmışdır və İmmiqrasiya və Gömrük Mühafizəsi (ICE), Gömrük və Sərhəd Mühafizəsi (CBP) və Sahil Mühafizəsi kimi qurumları özündə birləşdirir. DHS-in əsas missiyaları sərhəd nəzarəti, immiqrasiya nəzarəti, terrorizmə qarşı mübarizə və fövqəladə hallara cavab tədbirlərinin əlaqələndirilməsidir.

ICE və ABŞ Sərhəd Patrul Xidməti mövcud büdcə mübahisəsində əsas rol oynayır. İKT İmmiqrasiya və Gömrük Mühafizəsi pozuntularını araşdırır, həbslər edir, insanları deportasiya mərkəzlərində saxlayır və qanunsuz immiqrantlara qarşı deportasiya əməliyyatları aparır. Sərhəd Patrul Xidməti ərazidə polis nəzarəti və qanunsuz sərhəd keçidlərinin qarşısını almaqdan məsuldur.

### Bağlanmalar ciddi nəticə verə bilər

ABŞ-da maliyyə məsələləri ilk dəfə deyil ki, mübahisə mənbəyinə çevrilir - 2026-cı maliyyə ili üçün büdcə layihəsində sərhəd təhlükəsizliyi və immiqrasiya qanunvericiliyi üçün CBP və ICE-yə resursların əhəmiyyətli bir hissəsi ayrılıb. Demokratlar hökumətin xərcləmə qanun layihələrini dəstəkləmək müqabilində "qoruyucu səddlər" və hesabatlılıq mexanizmləri üçün səy göstərirlər.

Xatırladaq ki, ABŞ-da müasir büdcə qaydalarının qəbul edildiyi 1976-cı ildən bəri maliyyələşmədə 22 dəfə analoji gecikmələr baş verib. 1980-ci ilə qədər belə fasilələr hökumətin fəaliyyətinə mane olmurdu. Baş prokuror Benjamin Sivilettinin (1980-1981) prosesi tənzimləyən qərarlarından sonra vəziyyət dəyişdi - o, federal qurumların təsdiq edilmiş büdcə olmadan fəaliyyət göstərmək hüququnun olmadığını təsdiqlədi. 1990-cı ildən bu yana hətta bir neçə saatdan çox davam edən hər hansı maliyyə gecikməsi rəsmi olaraq bağlanma hesab olunur.

İlk bağlanma 1976-cı ildə Cerald Fordun prezidentliyi dövrünə təsadüf edib. Daha sonra Cimmi Karterin, Ronald Reyqanın, ata Corc Buşun, Bill Klintonun, Barak Obamanın və Donald Trampın dövrlərində analoji hadisə baş verib. Son bağlanmanı nəzərə almasaq, ən uzun bağlanma Donald Trampın birinci prezidentliyi dövründə baş verib: 34 gün (22 dekabr 2018-ci il - 25 yanvar 2019-cu il). Bu bağlanma zamanı 380 000 dövlət işçisi məzuniyyətə buraxılıb, 420 000 nəfər ödənişsiz işləyib və daha 4,1 milyon insanın gəlirləri müqavilələrin dondurulması səbəbindən təsirlənib. Ədliyyə Departamenti 60 mindən çox immiqrasiya dinləməsini ləğv edib. Bununla belə, bəzi qurumlar fəaliyyətini davam etdirir - çünki büdcə qanun layihələrinin beşdə biri böhrandan əvvəl artıq təsdiqlənir.

Bundan başqa, ən uzun qapanma Bill Klinton (1995-1996) dövründə 21 gün davam edib. bu bağlanma iki mərhələdən ibarət olub. Başqa bir qapanma isə 2013-cü ildə Barak Obamanın dövründə olub - 16 gün davam edib. Respublikaçı prezidentlərin dövründə bağlanma ümumən 106 gün çəkib. Demokratlarda bu göstərici 98 gündür. Ən çox qapanma yaşayan Respublikaçı prezident isə Donald Trampdır - onun dövlət başçısı olduğu dövrdə 79 gün qapanma olub. Demokrat Cimmi Karterin prezidentliyi dövründə isə proses ümumən 56 gün çəkib.

Praktikada bağlanmalar əsasən federal işçilərə təsir göstərir. Yüz minlərlə işçi ya ödənişsiz məzuniyyətə göndərilir, ya da vaxtında ödəniş zəmanəti olmadan işləməyə davam edir. "Zəruri" hesab edilən işçilərə adətən hərbi qulluqçular, hüquq-mühafizə orqanları, hava nəqliyyatı dispetçerləri və müəyyən kateqoriyalı milli təhlükəsizlik işçiləri daxildir.

Mütəxəssislərin fikrincə, hətta qısamüddətli bağlanmanın iqtisadi nəticələri ciddi ola bilər. Konqresin Büdcə İdarəsinin (CBO) hesablamalarına görə, əvvəlki hökumət bağlanmaları iqtisadi artımın azalmasına, biznes üçün qeyri-müəyyənliyin artmasına və böhrandan sonra dövlət əməliyyatlarının bərpası ilə bağlı əlavə xərclərə səbəb olub.

**P.İSMAYILOV**




# AŞPA-nın növbəti qərəzi

## və yaxud ermənidən artıq ermənilik

*Mübariz FEYİZLİ*

Yeni dünya nizamının formalaşması prosesi müşahidə edilsədə, bəzi beynəlxalq təşkilatlar milli dövlətlərə qarşı təzyiq siyasətindən əl çəkmək istəmirlər. Avropa Şurası Parlament Assambleyasının (AŞPA) davranışları da buna tipik nümunədir. AŞPA, həmçinin Azərbaycana münasibətdə də özünün ənənəvi qərəzli mövqeyindən geri çəkilmək istəmir. Budur, qurum yenicə işinə başlayan qış sessiyasında ölkəmizə münasibətdə öz məkrini yenidən ortaya qoyub. Belə ki, Azərbaycan nümayəndə heyətinin qatılmadığı həmin sessiyada respublikamızla bağlı qərəzli qətnamə qəbul olunub. Bəhs olunan kağız parçasında (obyektivlikdən uzaq olan bir təşkilatda qəbul edilən "sənədi" ancaq belə adlandırmaq mümkündür - red.) yenə də erməni məsələsi, separatçılar mövzusu gündəmə gətirilib və onların dərhal azadlığa buraxılması istənilib.

Kağız parçasının məzmununa istinad etməklə, burada əksini tapan iddiaları AŞPA divarları arasında uzun illər ərzində səslənən və eşidənlərin qulaqlarını yoran köhnə mahnıların uğursuz təkrarı kimi dəyərləndirmək mümkündür. AŞPA deputatları bəlli mövzudan söhbət açanda, yəni Qarabağdan ermənilərin "çıxarılmasından", separatçıların azadlığa buraxılmaların "zəruriliyindən" danışarkən, bir qayda olaraq insan haqlarına və bununla bağlı müvafiq beynəlxalq konvensiyalara istinad edirlər. Lakin parlamentarilərin bu kimi istinadları yalnız Qarabağdan könüllü çıxan ermənilərə və separatçılara şamil etmələri təsdiqləyir ki, onlar bəlli məsələləri manipulyasiya predmetinə çeviriblər və ikili standartlardan çıxış edirlər. Müqayisələr apardıqda hər şey günəş kimi aydın olur. Xatırlayaq ki, Avropa Şurası Parlament Assambleyası 30 il ərzində Ermənistanın işğalçılıq siyasətini görməzdən gələn, "siyasi məsələlərə qarışmaq bizim platformanın işi deyil" deyən qurumlar siyahısında "liderlər" sırasında yer alıb Hər dəfə Azərbaycan məsələ qaldıranda, işğal altında olan ərazilərimizə missiyalar göndərilməsinə çağırışlar edəndə, bütün bunları təpki ilə qarşılayan avropalı parlamentarilər heyrət doğuracaq "soyuqqanlılıqları" AŞPA-nın insan hüquqları ilə məşğul olan təşkilat olması ilə əsaslandırmağa çalışırdılar. Belə isə nə üçün missiyası insan hüquqlarının müdafiəsi olan AŞPA azərbaycanlı qaçqın və məcburi köçkünlərin vəziyyətinə biganə yanaşırdı? Yüz minlərlə dinc insanı, uşağı, qocanı, qadını yurd-yuvasından didərgin salan, soyqırıma rəvac verən dövləti, separatçı qurumu qınamamamağın, onları ədalətə çağırmamağın bir adı var idi - insan hüquqlarına arxa çevirmək.

Ağzına aldığı suyu boşaldan AŞPA postmüharibə dövründə Qarabağla bağlı məsələləri, o cümlədən də erməni əhalinin, separatçıların "pozulan" hüquqlarını dən geri çəkilməyən güclü Azərbaycan 44 günlük müharibənin və separatçıların sonunu gətirən 23 saatlıq lokal xarakterli antiterror əməliyyatının nəticələrinə uyğun olaraq regionda yeni reallıqlar yaradıb. Vaşinqton görüşü, Davos Forumu bir daha təsdiqlədi ki, dünya, əksər güc mərkəzləri




isə dəfələrlə müzakirələrə çıxarıb və hər dəfə də qalib Azərbaycanın yaratdığı reallığa əyri gözgüdən baxış edilib.

Bu günlərdə qış sessiyasında Azərbaycanla bağlı qəbul olunan qətnamə qurumun beynəlxalq müstəvidə cərəyan edən proseslərin arxasında süründüyünü bir daha ortaya qoyur. AŞPA-ya erməni lobbisinin təsirləri o qədər güclüdür ki, qurumu təmsil edən parlamentarilər Azərbaycanla Ermənistan arasındakı tənzimləmə prosesinin hazırkı mərhələsində nələrin baş verdiyini belə qəbul etmək istəmirlər. 30 il ərzində ədalətli mövqeyindən, haqq mübarizəsindən geri çəkilməyən ... Azərbaycanın tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanmaqla yaratdığı reallıqları və sülh gündəliyini qəbul edirlər. Vaşinqtonda yekun sülh sazişinin paraflanması ilə Azərbaycan-Ermənistan münasibətlərində yeni bir səhifə açılıb. İndi Cənubi Qafqaz regionu heç vaxt olmadığı qədər sülhə yaxındır. Həmçinin Azərbaycanla Ermənistan arasında həm dövlətlər, həm də cəmiyyətlər səviyyəsində etimad quruculuğu prosesi başlayıb. AŞPA deputatları vicdanlıdırlarsa, obyektivdirlərsə, hər iki tərəf, hər iki xalq üçün əhəmiyyətli olan və dünya tərəfindən təqdir olunan sülh prosesinə töhfə verməyə çalışmalıdırlar. Onlara vacib bir məqamı xatırlatmaq istərdik. İndi revanşistlərin kiçik bir qrupu istisna olmaqla Ermənistanın özündə belə separatçıları yada salan yoxdur. Qarabağ məsələsi gündəlikdən çıxarılıb. AŞPA-ya nə düşüb ki, bu reallığı görməzdən gəlir və hazırda Ermənistanda nüfuzu palaz kimi yerlə bir olan kilsədən gələn tezisləri təkrarlayır? Bunun bir adı var: Ermənidən artıq ermənilik etmək.

Qeyd etdiyimiz kimi, qərəzli qətnamədə Bakıda məhkəmələri aparılan separatçılara dəstək ifadə olunur və onların Ermənistana təhvil verilməsi istənilir. AŞPA hansı haqla belə iddialarda buluna bilər? Azərbaycan böyük səylərlə tənzimləmə prosesini irəli aparan və sülh prosesində mühüm nəticəyə gəlinməsinə nail olan dövlətdir. Belə həssas yanaşmanın davamı olaraq respublikamız Ermənistanla ticarətə, tranzit keçidlərinə yaşıl işıq yandırıb, 4 erməni məhkumu təhvil verib. Son olaraq Qarabağda qalan 10 erməni də Ermənistana göndərilib. Bunlar Azərbaycanın xoş niyyətə əsaslanan və sülh siyasətinə sadiqliyini təsdiqləyən davranışlarıdır. Ancaq AŞPA-nın özünü hakim kimi apararaq separatçıların azadlığa buraxılmasını tələb etməsi heç bir əndazəyə sığmır. Azərbaycan ləyaqətli dövlətdir və siyasətini də ədalət tərəzisinin gözünü əymədən qətiyyətlə aparır. Azərbaycanın siyasəti müstəqillik və suverenlik prinsiplərinə əsaslanır. Bu siyasət hansısa mərkəzlərdə, Qərb dairələrində deyil, Bakıda Prezident İlham Əliyevin strateji baxışları, milli maraqları hər şeydən üstün tutması əsasında müəyyənləşdirilir. Biz partnyorlarımızı özümüz seçirik, beynəlxalq təsisatlarda da öz iradəmizlə təmsil olunuruq. Burada AŞPA kimi qurumlardan gələn qərəzli və qəzəbli iddialar heç bir rol oynamır və oynamayacaq. Yeri gəlmişkən, respublikamız Avropa İttifaqı məkanında da yaxşı tanınır. Bu gün ölkəmizin Avropanın təxminən 10 dövləti ilə strateji tərəfdaşlıq münasibətləri var. Azərbaycan indiki həssas dönəmdə "qoca qitə"nin enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır ki, bütün bunlar da AŞPA təmsilçilərinə yaxşı bəllidir. Budurmu avropalı parlamentarilərin minnətdarlığı? Bəlkə, qəbul olunan qərəzli qətnaməni belə dəyərləndirək: AŞPA Aİ siyasətinə zidd gedir və Avropanın maraqlarını erməni lobbisinin istəyinə qurban verir.

Daha bir mühüm məqama da diqqət çəkmək lazımdır. Söhbət AŞPA-nın Azərbaycanla bağlı müzakirələri respublikamızın nümayəndə heyətinin iştirakı olmadan apararmasından gedir. Azərbaycan AŞPA-nın qərəzli yanaşmalarını nəzərə almaqla iki il bundan əvvəl qurumda təmsilçiliyini müvəqqəti qaydada dayandırıb. AŞPA məkrli mövqeyindən geri çəkiləcəyi təqdirdə ölkəmiz qurumla əməkdaşlığa qayıda bilər. Bəli bir vəziyyətdə AŞPA-nın Azərbaycana aid iftira xarakterli qətnamə qəbul etməsinin hüquqi əsası yoxdur. Güman edirik ki, Ermənistan rəhbərliyi də AŞPA-nın son qərəzli qətnaməsinə adekvat münasibət bildirəcək.

# O bircə kəlmə...

## ...bircə kəlmə də dilimizin qlobal şəbəkədə gücünü artıra, dünyada sözün ümumi çəkisinə təsir göstərə bilər...

Ona da əminəm ki, o bircə kəlmə identik sözün məna yükü "Big Data"da fikir fırtınası yarada, həmçinin insan zəkasının hüdudsuzluğunu, fərqini hiss etdirə bilər.

Dilçi mütəxəssislər ana dilimizdə belə kəlmələrin barmaq sayından qat-qat artıq olduğunu bilirlər. Elə dili də qoruyub-saxlayan bu təkrarolunmaz ştrixlər, içindəki yük, təbiətlə mübarizədən tutmuş məişətlə vargəldə meydana çıxan fraqmentlərdir.

Dil həm də həyatın özünü gerçək, metafizik, "kvantsayağı" qeydə alır və həmin parçanı "natural çəki"si ilə gələcəyə ötürür. Bu mənada o, "Big Data"lardan, smart fiksasiya qurğularından daha canlı, güclü və perspektivlidir. Çünki, dil həm də gizli, qeyri-ixtiyari, qeyri-səlis fəaliyyət göstərə bilir.

Əgər dil həm də yazılı və şifahi ədəbiyyat yaradıb onu müəyyən alqoritmik çərçivəyə qoşa bilirsə, deməli, onun riyazi canlılığı da mövcuddur, o həmçinin bütün fiziki nisbilik ərazilərində də "yaşayıb-yaradır". Yəni, öz-özünə formalaşan dil, yaratmağa çalışdığımız Süni İntellektdən (Sİ) təbiətinə və immun sisteminə görə daha güclüdür.

Mənə elə gəlir ki, vaxt yetişəcək, Süni İntellektin dillərə təzyiqi, insanların isə bu təzyiqdən yaranan təbii xof və eyforiyası xeyli səngiyəcək, bəlkə də, tamamən yoxa çıxacaq. Əksinə, Sİ özü bu mükəmməl metodu dərindən öyrənmək üçün insanın "qılığına girməyə" çalışacaq. Necə ki, bu gün də Sİ elə həmin işlə məşğuldur: hələlik, mövcud olanları sümürüb, onlardan özünə mövcudluq (həm də özünəməşğulluq) yaradır.

Məsələyə məhz bu tərəfdən yanaşsaq, dilimizin qorunması ilə bağlı həyəcan təbilinin çalınması da təbii və zəruridir. Çünki, tamamilə fərqli bir sivilizasiyanın astanasındayıq. Sİ bizi və mədəniyyətlərimizi işğal etməyə hazırlaşır. Biz də bunu nəinki uzaqdan görüb müşahidə edir, hətta o hazırlığın - özümüzlə döyüşün içərilərinə doğru hərəkət edirik. Axı sözün bütün mənalarında, bu oyunu özümüz öz başımıza açmışıq. İndi, bu oyunu daha sürətli, güclü və gələcəyə yönəli etmək üçün yazılı, şifahi nə varsa, düşünüb yaratdığımız başqa bir beyinə köçürürük. Lakin bircə məsələ qalır: şifrə.

Dilin çox sayda, bitib-tükənməyən şifrələri var. Bu şifrələri açmaq üçün isə təkcə filoloji, tarixi, linqvistik və sair biliklər yetərli deyil.

Son vaxtlar, dünyada neyrolinqvistika ilə məşğul olan alimlər dili təkcə beyin hadisəsi kimi deyil, mücərrəd, fenomenal, hətta kənardan daxil olan bir təzahür kimi irəli sürüb mühakimələr yürütməyə, beləliklə də, Sİ-nin dil vasitəsilə insanın yerinə keçib-keçməyəcəyinə, hətta onun cildinə girib-girməyəcəyinə dair hipotez formalaşdırmağa çalışırlar.

Bu mülahizələr günbəgün zənginləşir. Hətta o yerə qədər ki, Sİ-nin yeni dil yaradacağını və o dilə şifrə tətbiq edəcəyini deyirlər.

Bircə sual açıq qalır: yeni dil və onun şifrəsini yaradan Sİ kənardan verilən siqnalları da ala biləcəkmi?

Əgər dil təkcə beyin hadisəsi deyilsə, daim "kosmik müdaxilə"yə möhtacdırsa, Sİ öz dilini zənginləşdirmək, "suvarmaq" üçün hansı alətlərdən istifadə etmək məcburiyyətində qalacaq? Axı onun bütün yarımkeçiriciləri materiyadır, ötürücü siqnal və qurğuları yalnız öz ərazilərində sənayeləşmiş olacaq.

İnsanın dili isə yaradıcı məfkurəyə malikdir. Onun hərəkət trayektoriyası mürəkkəbdir, metafizik, qeyri-maddidir. Bəs bu qeyri-bərabər rəqabətdən ortaya nə çıxacaq?

Dünyada dilləri gözləyən təhdidlərlə bağlı müzakirələrdə hesabatlılıq, birgə fəaliyyət, zənginləşdirmə və digər qabaqlayıcı tədbirlər barədə geniş müzakirələr aparılır. Hətta, o qədər ki, az qala dillərin təbii inkişaf alqoritmlərinə müdaxilə ediləcək, söz yaratma metodologiyası yolu ilə "broylervari", "inkubasiyavari" yanaşmalar təklif olunacaq. Lakin bu zaman bir neçə məqam - məsələn, dilə möhlət vermək, onu dinləmək, onunla "əməkdaşlıq etmək" imkanları unudularsa, nə baş verəcək? Bu hallarda dil, necə davranacaq?

Hal-hazırda əsas götürülən təcrübə dilyaratma alətlərinin - xüsusilə, zənginləşdirmə və funksionallığın artırılması üçün tələb olunan alətlərin folklor, ədəbi yaradıcılıq və bədii tərcümə inteqrasiyalarının birgə tətbiqidir.

Bizim dünyəvi dövlətimiz və zəngin yazılı ədəbiyyatımız, folklorumuz var. "Big Data"lara verəcəyimiz "töhfə"lər bu baxımdan xeyli çoxdur. Yuxarıda qeyd edildiyi kimi, bəzən bircə kəlmə, bizi ifadə edən bircə identik söz də dilimizin qlobal şəbəkədə gücünü artıra bilər. Fəqət, birdən o "qlobal şəbəkə", "Big Data" öz dilini yaradıb keçmiş-keçənlərindən imtina etmək istəsə...

Hal-hazırda dünyanı düşündürən əsas məsələlərdən biri də budur. Sİ-nin Ədəbiyyat və Mədəniyyət qarşısında yaratdığı problemlər Qərbdə və Şərqdə, Şimalda, Cənubda təkcə dilçiliyi qorumaq deyil, həm də dilin "Big Data"lara verəcəyi "töhfələr"dən sonra Sİ-nin necə davranacağıdır. Bu işlər necə tənzimlənəcək? Ümumiyyətlə, tənzimlənə biləcəkmi?

Bu məsələlər dilimizin də inkişafına dair tapşırıqları nəzərdə tutan "Azərbaycan Mədəniyyəti - 2040" Konsepsiyasında ayrıca yer alır. Azərbaycan dili ilə bağlı çağırışlara hazır olmaq, dilin inkişafı, o cümlədən beynəlxalq aləmdə təbliği və təşviqi ilə bağlı əlaqələndirilmiş fəaliyyət həyata keçirmək, Azərbaycan dilində elmi, elmi-publisistik və bədii əsərlərin sayını və keyfiyyətini artırmaq.

Əlaqələndirilimiş fəaliyyət nədir? Elmi-texniki tərəqqi, infrastrukturun inkişafı, urbanik dəyişikliklər dilə nə verəcək? Tərcümə sertifikatlaşdırılması nədir? Mədəniyyətimizlə dolub-daşan "Big Data"larla necə davranmalıyıq?

Bu barədə gələn yazımızda...



*Məqsəd Nur*

# BMT çətin seçim qarşısında



## Beynəlxalq hüquq, yoxsa "cəngəllik qanunları"?

Bir vaxtlar dünyanın ümid yeri sayılan bir qurum kimi araya-ərsəyə gələn Birləşmiş Millətlər Təşkilatının (BMT) özü bu gün beynəlxalq birliyin diqqət və qayğısına möhtac qalıb. Bəli, hazırda nüfuzu və funksionallığı hədsiz dərəcədə zəifləyən təşkilatın möhkəmləndirilməsinə, bu məqsədlə zəruri islahatların aparılmasına ciddi ehtiyac duyulur.

Son vaxtlarda BMT-də islahatların aparılması müxtəlif səviyyələrdə tez-tez gündəmə gəlir. Yaranmış vəziyyətlə bağlı növbəti narahatlığı isə qurumun Baş katibi Antonio Quterreşin özü dilə gətirirb. Baş katib bu barədə yanvar ayında BMT Təhlükəsizlik Şurasına sədrlik edən Somali tərəfindən çağırılan yüksəksəviyyəli açıq müzakirələrdə danışıb.

## Bu gün "SOS" siqnalı çalınmasa, sabah gec olacaq

Hazırda dünyada kədərli proseslər izlənilir. Müzakirələrdə vurğulandığı kimi, beynəlxalq ictimaiyyət bir-biri ilə əlaqəli çoxsaylı ciddi böhranlarla üz-üzə qalıb. Açıq etiraf olunmalıdır ki, bu böhranlar müasir dünyada çoxtərəfli sistemə ciddi təzyiq göstərir. Acı reallıqdır ki, beynəlxalq birliyin nizamı pozulub. Hüquq, konvensiyalar işləmir, bir sıra hallarda güc amili önə çıxır.Eyni məzmunlu hadisələrə fərqli yanaşmalar sərgilənir. Bəzi hallarda hansısa bir ölkənin başqa bir dövlətə hücumu qətiyyətlə pislənir, ona qarşı vaxt itirilmədən iqtisadi sanksiyalar, hərbi müdaxilələr də daxil olmaqla sərt tədbirlər görülür, müxtəlif başqa cəza mexanizmləri işə salınır. Digər hallarda isə təcavüzkar siyasət aparan və yaxud beynəlxalq hüququ, BMT qərarlarını pozan dövlətlərə qarşı belə operativ cəza tədirlərinin görülməsi heç yada da düşmür. Əksinə, bir sıra hallarda güc mərkəzləri təcavüzkar dövlətlərin yanında olur, onların BMT qərarlarını yerinə yetirməmələrinə şərait yaradırlar.

Təbii ki, izlənilən bu kimi proseslər ciddi narahatlıq doğurur. Bu gün "SOS" siqnalı çalınmasa, sabah gec olacaq. Bəhs olunan tədbirdə də müzakirələrin mövzuları münaqişələrin çoxalması, qlobal gərginliyin artması və beynəlxalq qurumlara və qaydalara inamın azalması ilə əlaqədar olub. Diqqətə çatdırılıb ki, bu gərginliklər hətta BMT müharibələrin qarşısını almaq və əzabları azaltmaq üçün nəzərdə tutulmuş prinsipləri müəyyən edən təsis Nizamnaməsinin qəbul edilməsinin 80 illiyini qeyd etdiyi bir vaxtda baş verir

Tədbirdə çıxış edən BMT-nin Baş katibi beynəlxalq hüququn "cəngəllik qanunları" ilə əvəzlənməsi təhlükəsi barədə xəbərdarlıq edib və dünya güclərini sülhün, ədalətin, çoxtərəfli əməkdaşlığın təməli kimi beynəlxalq hüquqa yenidən sadiq qalmağa çağırıb.

Quterreş BMT Nizamnaməsini beynəlxalq nizamın "döyünən ürəyi" adlandırıb və bildirib ki, qanunun aliliyi qlobal sülhün və təhlükəsizliyin təməl daşıdır.

Onun sözlərinə görə, Nizamnamə səksən ildir ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Cenevrə Konvensiyaları və digər əsas hüquqi sənədlərlə birlikdə bəşəriyyətə başqa bir dünya müharibəsindən qaçmağa və saysız-hesabsız münaqişələrin qurbanlarını azaltmağa kömək edib. Bununla belə, Baş katib beynəlxalq hüquqla bağlı öhdəliklərin getdikcə daha çox qulaqardına vurulduğunu qeyd edib.

## Azərbaycan beynəlxalq hüququ və tarixi ədaləti özü təmin edən ölkədir

A.Quterreş, həmçinin diqqəti BMT Nizamnaməsinin və beynəlxalq hüququn kobud şəkildə pozulması kimi təsvir etdiyi hərəkətlərə, o cümlədən qanunsuz güc tətbiqi, mülki infrastruktura hücumlar, insan hüquqlarının pozulması və həyat qurtaran humanitar yardımın rədd edilməsinə çəkib. BMT-nin rəhbəri xəbərdarlıq edib ki, bu cür pozuntular təhlükəli presedentlər yaradır, cəzasızlığı təşviq edir və millətlər arasında etimadı sarsıdır.

Baş katibin dilə gətirdiyi həqiqətlər Azərbaycana yaxşı tanışdır. Belə ədalətsizliyin və ikili standartların mənfi fəsadları ilə ötən əsrin doxsanıncı illərinin əvvəllərində Ermənistanın işğalçılıq siyasətinə məruz qalan respublikamız da üzləşib. Ortada BMT-nin Ermənistanın silahlı qüvvələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını özündə ehtiva edən dörd qətnaməsi olsa da, işğalçılıq siyasəti düz otuz il davam etdi. Bu, bir tərəfdən beynəlxalq hüququn işləmədiyinin, digər tərəfdən isə BMT-nin gücsüzlüyünün göstəricisi idi. Nəticə etibarı ilə, Azərbaycan tarixi ədaləti və BMT-nin qətnamələrinin icrasını özü təmin etdi. Halbuki, BMT real təsir imkanlarına malik olan güvənli bir təşkilat kimi fəaliyyət göstərməlidir və onun qəbul etdiyi sənədlərin icrası mütləq qaydada təmin olunmalıdır. Azərbaycan davamlı olaraq multilateralizmin qorunmasının, BMT-nin mərkəzi rolunun gücləndirilməsinin, beynəlxalq hüquqa sadiqliyin zəruriliyini vurğulayır və BMT nizamnaməsinin məqsəd və prinsiplərinin universallığının əhəmiyyətini ön plana çəkir. Ölkəmiz o mövqedən çıxış edir ki, BMT nizamnaməsinin və beynəlxalq hüququn yanlış şərhlərinin qarşısının alınması üçün daha çox səylər göstərilməli, beynəlxalq öhdəliklər onların qəbul edildiyi mahiyyət və məzmunda icra olunmalıdır. Azərbaycan həmçinin öz nümunəsi ilə multilateralizm ideyalarının ardıcıl şəkildə təşviqinə davamlı töhfələr verir. Ölkənin 29-cu İqlim Dəyişikliyi Konfransına ev sahibliyi etməsi, Qoşulmama Hərəkatında, Türk Dövlətləri Təşkilatında, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə və digər beynəlxalq platformalarda sədrliyi və fəal iştirakı bunun əyani təsdiqidir.

Azərbaycanın israr etdiyi digər bir vacib məsələ BMT TŞ-nin genişlənməsi ilə bağlıdır. BMT-nin sıralarında 193 ölkə birləşir. Ancaq təşkilatda bu qədər ölkənin təmsilçiliyi, əslində, formal səciyyə daşıyır. Çünki, qurumda TŞ-nın 5 daimi üzvünün mövqeyi həlledicidir. Buna görə də beynəlxalq ictimaiyyətdə belə bir rəy formalaşıb ki, BMT, əslində, beş böyük dövlətin maraqlarına xidmət edir. Bəs yerdə qalan 188 dövlət nə üçün 5 ölkənin diqtəsi ilə oturub-durmalıdır? TŞ-də 5 daimi üzv dövlətin bir sıra hallarda sərgilədiyi obyektivlikdən uzaq mövqe dünyada ciddi narazılıqla qarşılanır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan obrazlı şəkildə bildirib ki, dünya beşdən böyükdür. Azərbaycan da BMT-də islahatların aparılmasının tərəfdarıdır. Elə bir mexanizm yaradılmalıdır ki, qurumun qəbul etdiyi sənədlərin icrası mütləq qaydada təmin edilsin. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bildirib ki, BMT TŞ-nin tərkibi yenilənməlidir. Bu baxımdan ərəb, Afrika, Asiya körfəz ölkələrinin, İslam dünyasının, Qoşulmama Hərəkatının təmsilçiləri də TŞ-də yer almalıdırlar. Yalnız bu halda BMT-nin nüfuzunu artırmaq və ədaləti dünya nizamına nail olmaq mümkündür.







*Mübariz ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN




# “Azərbaycan Mədəniyyəti-2040” Konsepsiyasının təqdimatına həsr olunan sessiya keçirilib

Azərbaycan Milli İncəsənət Muzeyində “Azərbaycan Mədəniyyəti-2040” Konsepsiyasının təqdimatına həsr olunan sessiya keçirilib. Əvvəlcə konsepsiya ilə bağlı videoçarx nümayiş olunub. Videoçarxda Azərbaycan mədəniyyətinin müasir modeli, konsepsiyanın mərhələləri, Azərbaycan dilinin təbliği və gücləndirilməsi, habelə səkkiz bənd üzrə hədəf göstəricisi barədə məlumat verilib. Eyni zamanda, mədəni irsin qorunması və mədəniyyətimizin beynəlxalq arenada tanıdılması məsələləri diqqətə çatdırılıb.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov çıxışında bildirib ki, “Azərbaycan Mədəniyyəti-2040” sənədi mədəni sahədə uzunmüddətli strateji yanaşmanı və inkişaf prioritetlərini özündə birləşdirir. Konsepsiya tək bir qurumun sənədi deyil, bütövlükdə mədəni ictimaiyyətin, ziyalıların və medianın fəal iştirakı ilə formalaşan ümumi yol xəritəsidir.

Nazir müavini bildirib ki, konsepsiyanın icrasında rəqəmsallaşma, kommunikasiya imkanlarının genişləndirilməsi və müasir idarəetmə alətlərindən istifadə xüsusi yer tutur. Eyni zamanda, mədəniyyət iqtisadiyyatı, mədəni diplomatiya və milli dəyərlərin beynəlxalq səviyyədə tanıdılması da prioritet istiqamətlər sırasındadır.

Milli Məclis sədrinin müavini, akademik Rafael Hüseynov bildirib ki, konsepsiyanın əsas məqsədlərindən biri qloballaşma şəraitində Azərbaycan mədəniyyətinin bütövlüyünü, saflığını, təmizliyini və azad ruhunu qorumaqdır. Onun sözlərinə görə, konsepsiyanın mühüm tərəflərindən biri odur ki, ilk dəfə Azərbaycan mədəniyyətinə bütün tarix və istiqamətlər üzrə konseptual və sistemli baxış təqdim olunur. Burada mədəniyyət milli varlığın, milli kimliyin və milli şüurun kompleks tərkib hissəsi kimi nəzərdən keçirilir. Diqqətə çatdırıb ki, konsepsiyada xüsusi vurğulanan hədəflərdən biri də Azərbaycan mədəniyyətinin beynəlxalq arenada daha aydın və sistemli formada tanıdılmasıdır. Məqsəd yalnız ölkə daxilində mədəni həyatın canlanması deyil, eyni zamanda Azərbaycanın mədəni irsinin, bilik və mənəvi dəyərlərinin dünyada daha güclü şəkildə təmsil olunmasıdır.

Akademik Nizami Cəfərov vurğulayıb ki, bu konsepsiyanın konseptual yanaşmasının əsas cəhətlərindən biri Azərbaycan dilinin ilk dəfə mədəniyyət faktoru kimi ayrıca qəbul edilməsi və mədəniyyətin strateji xəttində xüsusi yer tutmasıdır. O bildirib ki, Azərbaycan dili mənşəyimizin, yaddaşımızın və dövlətçiliyimizin əsas sütunlarından biridir və heç vaxt “tarixi bədəndən” ayrılmamalıdır. Akademik əlavə edib ki, özümüzə, tariximizə və əcdadlarımıza layiq şəkildə davranmalıyıq. Onun sözlərinə görə, dilə münasibət məsələsi burada əsas mövzulardan biridir. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də mədəniyyət göstəricisidir.



Kulturoloq, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədri, professor Fuad Məmmədov isə qeyd edib ki, bu gün təqdim olunan “Azərbaycan Mədəniyyəti-2040” Konsepsiyası böyük hadisədir. Onun sözlərinə görə, sənəddə Azərbaycan mədəniyyətinə və ümumilikdə ölkənin mədəni inkişafına tamamilə yeni baxış təqdim olunur. Fuad Məmmədov bildirib ki, konsepsiya gələcəkdə yalnız ölkə daxilində deyil, daha geniş miqyasda da diqqət çəkəcək və müəyyən mənada paradiqma xarakteri qazanacaq.

# Aİ Hindistanda aşkarlanan Nipah virusu ilə bağlı vəziyyəti izləyir

Avropa İttifaqı (Aİ) Hindistanda qeydə alınan Nipah virusu ilə bağlı vəziyyəti yaxından izləyir. Avropa Komissiyasının yaydığı məlumata görə, Hindistanın şərqində yerləşən Qərbi Benqal ştatında iki yoluxma halının təsdiqlənməsindən sonra Aİ-yə üzv ölkələrin müvafiq qurumları xəstəliyin inkişaf dinamikasını diqqətlə monitorinq edir. Nipah virusu həm heyvanlara, həm də insanlara yoluxa bilən təhlükəli zoonoz xəstəlikdir. Yoluxma baş verdikdən sonra xəstəlik əlamətsiz keçə bildiyi kimi, yüksək hərarət, tənəffüs problemləri, ağır hallarda isə beyin ödemi və ölümlə nəticələnə bilər.



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına əsasən, Nipah virusunun ölüm göstəricisi 40-75 faiz arasında dəyişir. Hazırda bu xəstəliyin müalicəsi və ya ona qarşı təsdiqlənmiş peyvənd mövcud deyil. Bu səbəbdən virus ÜST tərəfindən prioritet ictimai səhiyyə təhlükəsi kimi qiymətləndirilir.

Avropa Komissiyası bildirir ki, bu günədək Aİ ölkələrində Nipah virusu ilə bağlı heç bir yoluxma halı qeydə alınmayıb və milli səhiyyə orqanlarının məlumat bazasında təsdiqlənmiş fakt yoxdur. Bununla belə, risklərin idarəedilməsi üzrə qruplar vəziyyəti yaxından izləyir. Hazırkı mərhələdə Aİ vətəndaşlarının Hindistana səfəri və ya bu ölkədən qayıdışı ilə bağlı əlavə məhdudiyyətlər və ya tövsiyələr tətbiq olunmur. Komissiyanın rəsmi açıqlamasında qeyd edilir ki, vəziyyət Aİ-nin Nyu-Dehlidəki nümayəndəlikləri ilə koordinasiya şəklində izlənilir və zərurət yaranarsa, müvafiq tədbirlər görüləcək.

Hindistan hökumətinin verdiyi məlumata görə, yoluxma halları ötən ilin dekabr ayının sonunda aşkarlanıb. Virus aşkarlanan şəxslərin səhiyyə işçiləri olduğu və yerli xəstəxanada müalicə aldıqları bildirilir. Yoluxmuş şəxslərlə təmasda olmuş təxminən 200 nəfər müəyyən edilib, onların heç birində simptom aşkarlanmayıb və test nəticələri mənfi çıxıb. Hindistanın Səhiyyə Nazirliyi vəziyyətin daimi nəzarətdə saxlanıldığını və bütün zəruri ictimai səhiyyə tədbirlərinin görüldüyünü açıqlayıb.




Yeni yoluxma halları qeydə alınmasa da, virusun mümkün yayılması ilə bağlı narahatlıqlar Asiyanın bir sıra ölkələrində, o cümlədən Sinqapur, Honkonq, Tailand və Malayziyada hava limanlarında əlavə tibbi yoxlamaların, xüsusilə bədən temperaturunun ölçülməsi kimi tədbirlərin tətbiqinə səbəb olub.

Mütəxəssislərin bildirdiklərinə görə, Nipah virusu əsasən heyvanlardan insanlara keçir, lakin yoluxmuş qida vasitəsilə və ya insanlar arasında da yayıla bilər. Virusun təbii daşıyıcıları meyvə yarasaları hesab olunur. Xəstəliyin əlamətləri, adətən, yoluxmadan 4-14 gün sonra ortaya çıxır, bəzi hallarda bu müddət 45 günə qədər uzana bilər. Başağrısı, qızdırma, əzələ ağrıları, boğazağrısı və qusma ilkin simptomlar sırasındadır. Ağır hallarda qıcolmalar, beyin şişməsi və koma müşahidə oluna bilər.

ÜST-nin məlumatına əsasən, xəstəliyi keçirənlərin təxminən 20 faizində uzunmüddətli nevroloji fəsadlar qalır. Peyvənd hələ mövcud olmasa da, riskləri azaltmaq üçün xəstə heyvanlarla təmasda qoruyucu vasitələrdən istifadə etmək, yarasa dişləməsi izləri olan meyvələri istehlak etməmək və xəstələrə qulluq zamanı gigiyena qaydalarına riayət etmək tövsiyə olunur.

Qeyd edək ki, ötən ilin oktyabrında bəzi Aİ ölkələrində Nipah virusuna qarşı genetik modifikasiya olunmuş peyvəndlə bağlı klinik sınaqlar üzrə ictimai məsləhətləşmələr başlanıb, lakin sınaqların faktiki başlanma tarixi hələ açıqlanmayıb.

*İdman*

## Güləş Federasiyası ilə AHİTA memorandum imzalayıb



Azərbaycan Güləş Federasiyası (AGF) və Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyası İctimai Birliyi (AHİTA) arasında memorandum imzalanıb. AGF-dən verilən məlumata görə, memorandumda tərəflərin birgə layihələrin həyata keçirilməsi, yeni idman zallarının açılması, müxtəlif yarışların təşkili, AHİTA-nın balansında olan idman mərkəzlərinin istifadəsi və başqa məsələlər qeyd olunub. Bildirilib ki, AGF güləşin inkişafı üçün digər idman qurumlarıyla da sıx əməkdaşlığı davam etdirəcək.

## Azərbaycan Belçikadakı turnirdə 31 cüdoçu ilə təmsil olunacaq

Yanvarın 31-də Belçikada cüdo üzrə Beynəlxalq Açıq Turnir start götürəcək.

Azərbaycan Cüdo Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, fevralın 1-dək davam edəcək yarışda ölkəmiz 14 çəki dərəcəsində 31 cüdoçu (17 kişi, 14 qadın) ilə təmsil olunacaq. Kişi cüdoçulardan ibarət yığmanın heyətində Babarəhim Mirzəyev, Murad Muradlı, Murad Əliyev, Fərid Qarayev (hamısı 60 kiloqram), Hüseyn Allahyarov, Yaşar Nəcəfov, Tofiq Məmmədov (hamısı 66 kiloqram), Kamran Süleymanov, Əbil Yusubov (hər ikisi 73 kiloqram), Cəsur İbadlı, Mehdi Abbasov (hər ikisi 81 kiloqram), Əli Qazıməmmədov, Zelim Tçkayev (hər ikisi 90 kiloqram), Davud Namazlı, Nihad Şıxəlizadə (hər ikisi 100 kiloqram), Ramazan Əhmədov və Camal Feyziyev (hər ikisi +100 kiloqram) yer alıblar.

Qadınların mübarizəsində isə Şəfəq Həmidova, Diana Tçkayeva (hər ikisi 48 kiloqram), Könül Əliyeva, Çinarə Sadıqova, Aydan Vəliyeva, Gültac Məmmədəliyeva, Leyla Əliyeva (hamısı 52 kiloqram), Ülviyyə Bayramova (57 kiloqram), Fidan Əlizadə, Nərgiz Hacıyeva (hər ikisi 63 kiloqram), Aytac Qardaşxanlı, Südabə Ağayeva (hər ikisi 70 kiloqram), Nərmin Əmirli (78 kiloqram) və Madina Kaisinova (+78 kiloqram) qüvvəsini sınayacaq.




İdmançılara kişilərdən ibarət milli komandanın böyük məşqçisi Slavko Tekiç, gənc oğlanlardan ibarət yığmanın baş məşqçisi Rüstəm Alimli, qadınlardan ibarət yığmanın çalışdırıcısı Amina Abdellatif və gənc qızlardan ibarət millinin məşqçisi İmamverdi Məmmədov rəhbərlik edəcək.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4604
Sifariş: 151
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova